Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal
vol. 5, № 4, 2023, pp. 95-97.

# FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNDƏ HƏRƏKİ QABİLİYYƏTLƏRƏ DAİR STANDARTLARININ REALLAŞDIRILMASININ TƏDQİQİ

**H.E. Əliyev**

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
hamid.aliyev@sport.edu.az, orcid.org/0009-0004-8802-357X

**Nəşr tarixi**
Qəbul edilib: 11 oktyabr 2023
Dərc olunub: 28 dekabr 2023
© 2021 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Məqalədə fiziki tərbiyə dərslərinin tədrisi zamanı hərəki qabiliyyətlərin inkişafı metodlarının tətbiqi zəruriliyi, bu metodlar haqqında ümumtəhsil məktəbləri fiziki tərbiyə müəllimlərinin məlumatlılıq dərəcəsinin müəyyən edilməsi, tədqiqat nəticələri əsasında zəruri tədbirlərin həyata keçirilməsinə dair iddiaçının fikir və mülahizələri öz əksini tapmışdır.

**Açar sözlər:** *ümumtəhsil məktəbləri, fiziki hazırlıq, fiziki hazırlığın aspektləri, qiymətləndirmə meyarları, hərəki qabiliyyətlər, hərəki qabiliyyətlərin inkişafı metodları, fiziki tərbiyə.*

**Aktuallığı:** Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlıq komponentlərinin ən mühüm aspektlərindən biri hərəki qabiliyyətlərin inkişaf etdirilməsidir. Hərəki qabiliyyətlər fənnin əsas məzmun xətlərindən olmaqla şagirdlərin sağlamlığının qorunmasının və möhkəmləndirilməsinin, eyni zamanda onların fiziki hazırlığının artırılmasında təcrübi əhəmiyyət daşıyan, tətbiqi xüsusiyyətli standartlarla fiziki tərbiyə fənninin kurikulumunda öz əksini tapmışdır. Fiziki tərbiyə fənnnin tədrisinin əsas məqsədi kimi şagirdlərin fiziki hazırlığının təmin olunmasında bu standartların hazırlıq komponentlərinin yaş qruplarının tələblərinə müvafiq, qarşılıqlı əlaqədə inkişaf etdirilməsini aktual zərurətə çevirir. İlk baxışda ayrı-ayrı hərəki qabiliyyətlərin müstəsna, əlahiddə subyekt olduğu təsəvvürü yaransa da, əslində effektli metodikadan istifadə zamanı onların biri-birinə inkişafetdirici təsiri təcrübədə hər an özünü göstərməkdədir. Bu səbəbdən də şagirdlərin fiziki hazırlıqlarının inkişafı:

1. Hərəki qabiliyyətlərinin inkişafını təmin edən zəruri metodlar haqqında onların kifayət qədər məlumatlılıq səviyyələrindən;
2. Dərs prosesində hərəki qabiliyyətlərin inkişafı metodlarının səmərəli və məqsədyönlü istifadəsindən;
3. Ayrı-ayrı hərəki qabiliyyətlərin inkişafı zamanı qarşılıqlı əlaqənin təmin edilməsindən bilavasitə asılıdır.

Yuxarıda qeyd olunanlar şagirdlərin bütün təhsil uğurlarının əsasında duran fiziki hazırlığın təmin edilməsində müvafiq standartların reallaşması prosesinin tədqiq olunmasını aktual problemə çevirir.

Tədqiqat məqsədi – fiziki tərbiyənin dövlət standartlarının və elmi-metodiki mənbələrin təhlili, bizə fiziki tərbiyə dərslərində hərəki qabiliyyətlərin inkişafı metodlarından istifadənin səmərəliyinin tədqiqi kimi məqsədin formalaşdırılmasına əsas verdi.

Tədqiqatın vəzifələri – hazırıcı mərhələdə tədqiqat qarşısında aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

1. Elmi-metodiki mənbələrdə hərəki qabiliyyətin inkişafı metodları haqqında məlumatların təhlili, öyrənilməsi və sistemləşdirilməsi.
2. Ümumtəhsil məktəblərində fiziki tərbiyə müəllimlərinin hərəki qabiliyyətlərin inkişafı metodları haqqında məlumatlılıq dərəcəsinin öyrənilməsi məqsədi ilə anket sorğusunun keçirilməsi.

Tədqiqatın fərziyyəsi – ehtimal olunur ki, fiziki tərbiyə dərslərində hərəki qabiliyyətlərin inkişafı metodlarının tətbiqi şagird kontingentinin fiziki hazırlığının müxtəlif komponentlərin daha effektli və proqnozlaşdırıla bi-

lən səviyyəsini əldə etməyə kömək etmiş olacaqdır.

Tədqiqatın nəticələri–"Ümumtəhsil məktəblərində Fiziki tərbiyənin kurikulumu" Dövlət sənədlərinin strukturu göstərir ki, burada:

1. İnformasiya təminatı və biliklər.
2. Bacarıq və vərdişlər.
3. Hərəki qabiliyyətlər.
4. Mənəvi-iradi xüsusiyyətlərin formalaşdırılması kimi məzmun xətləri qarşılıqlı üzvü əlaqədə verilmişdir.

Bu əlaqə əslində hər hansı hərəki qabiliyyət haqqında informasiya → hərəki qabiliyyəti inkişaf etdirən təmrinlərin icra bacarıqları → adekvat təmrinlərin müvafiq icra intensivliyi və həcmi nəzərə alınmaqla yerinə yetirilməsi → və bu prosesdə müvafiq iradi xüsusiyyətin formalaşdırılması kimi əlaqə mövcuddur. Çox qısa şəkildə bu əlaqə şagirdlərin:




kimi fəaliyyətini şərtləndirir.

Bu prosesdə mərkəzi aspekt hərəkətin zəruri intensivlikdə icrasıdır. Şagirdin fiziki hazırlığının hansı dərəcədə yaxşılaşması bu prosesdə istifadə olunan hərəki qabiliyyətin inkişafı metodlarının tətbiqi effektliyi ilə müəyyən olunur.

Qeyd etməliyik ki, ümumtəhsil məktəbləri müəllimləri üçün hazırlanmış vəsaitlərdən 6-cı sinifdə və "Ümumtəhsil məktəblərində 5-11 sinif fiziki tərbiyə" metodiki vəsaitlərində hərəki qabiliyyətlərin inkişafı metodları haqqında qısa islahlı məlumat verilir.

Eyni zamanda demək olar ki, bütün siniflər üçün hazırlanmış müəllimlər üçün metodik vəsaitlərdə hər bir hərəki qabiliyyətin inkişafı üçün istifadəsi tövsiyə olunan təyinatlı təmrinlər, oyunlar əyani olaraq verilir, lakin onların şagird orqanizminə inkişafetdirici təsirini təmin edəcək aspekt icra metodları haqqında kifayət qədər məlumat yoxdur. Bu səbəbdən də tədqiqatın indiki mərhələsində biz ümumtəhsil məktəblərində çalışan fiziki tərbiyə müəllimləri arasında hərəki qabiliyyətlərin inkişafı metodları haqqında onların məlumatlılıq dərəcəsinin müəyyən edilməsi məqsədi ilə anketi sorğusu apardıq. Ümumtəhsil məktəblərində çalışan 54 müəllim arasında aparılan anket sorğusunun nəticələrinə görə sorğuda iştirak edənlərin 21-i (38 %) metodlar haqqında çox az məlumata malik olduqlarını, 16 nəfər məlumatlı, 17 nəfər isə kifayət qədər ətraflı məlumata malik olduqlarını qeyd etmişlər. Beləliklə, ayrı-ayrı hərəki qabiliyyətlərin inkişafı metodlarının fiziki tərbiyə dərslərində tətbiqi effektliyi əslində arzuolunan qədər də yüksək deyildir və cəmi ümumilikdə 61% təşkil edir.

Tədqiqatın bu mərhələsində əldə olunan nəticələr aşağıdakı qənaətə gəlməyə əsas verir:

1. Hərəki qabiliyyətlərin inkişafı metodlarının təcrübi tətbiqini, özündə əks etdirən metodiki vəsaitlərin hazırlanmasına olan ehtiyac yüksəkdir.
2. Ümumtəhsil məktəblərində çalışan fiziki tərbiyə müəllimlərinin hərəki qabiliyyətin inkişafı metodları haqqında məlumatlılıq səviyyəsinin artırılması üçün mərkəzləşdirilmiş treninqlərin keçirilməsi zərurəti mövcuddur.
3. Hərəki qabiliyyətlərin inkişafı metodlarının fiziki tərbiyə dərslərində istifadə effektliyinin müəyyən olunması əlavə kompleks tədqiqatların aparılmasını aktuallaşdırır.

## ƏDƏBİYYAT

1. **Hüseynov F., Əsgərov A., Allahverdiyev B., Musayev V., Qaybalıyev E.** *Ümumtəhsil məktəblərinin 5-11-ci siniflərində "Fiziki tərbiyə"*. B., 2012, 168 s.
2. **Hüseynov F., Bağırov S., Əliyev İ., Hüseynov F., Niftullayev A.** *VI sinif. Müəllim üçün metodik vəsait.* Bakı 2017, 95 s.
3. **Hüseynov F., Əsgərov A., Bağırov S.,**

**Əliyev İ., Həşimov H.** *VII sinif. Müəllim üçün metodik vəsait*. Bakı 2014, 127 s.

4. **Hüseynov F., Məmmədov R. və b.** *Fiziki tərbiyənin 5-8-ci siniflərdə planlaşdırılması və qiymətləndirilməsi.* Müəllim üçün vəsait. Bakı 2015, 6.75 ç.v.
5. **Hüseynov F., Ələkbərov Ə. və b.** *Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının tədqiqi.* Məqalə. AzDBTİA-da 2011-2015-ci illərdə aparılan elmi-tədqiqat işlərinə həsr olunmuş elmi-praktik konfransın materialları. 3-5 fevral, 2016.

# ИЗУЧЕНИЕ РЕАЛИЗАЦИИ НОРМАТИВОВ ПО МОБИЛЬНЫМ НАВЫКАМ НА УРОКАХ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ

**Г.Е. Алиев**

*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
hamid.aliyev@sport.edu.az, orcid.org/0009-0004-8802-357X

**Аннотация.** В статье обосновывается необходимость применения методов развития двигательных способностей при проведении занятий по физическому воспитанию, определение уровня информированности учителей физкультуры общеобразовательных школ об этих методах, а также проведение необходимых мероприятий на основе результатов исследования.

**Ключевые слова:** *общеобразовательная школа, физическое воспитание, аспекты физического воспитания, критерии оценки, двигательные способности, методы развития двигательных способностей, физическое воспитание.*

# STUDYING THE IMPLEMENTATION OF STANDARDS FOR MOBILE SKILLS IN PHYSICAL EDUCATION LESSONS

**A.E. Aliyev**

*Azerbaijan State Academy of Physical Education and Sport*
hamid.aliyev@sport.edu.az, orcid.org/0009-0004-8802-357X

**Annotation.** In the article, the necessity of applying the methods of development of motor abilities during the teaching of physical education classes, the determination of the level of awareness of physical education teachers of general education schools about these methods, and the implementation of necessary measures based on the research results are reflected.

**Keywords:** *general education schools, physical training, aspects of physical training, assessment criteria, motor abilities, methods of motor ability development, physical education.*